

**Azərbaycan Respublikasının Prezident Sarayı** - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının və İşlər İdarəsinin yerləşdiyi inzibati binadır.

**Azərbaycan Respublikasının Milli Məclisi** — Azərbaycan Respublikasında qanunvericilik hakimiyyətini həyata keçirən orqan. Birpalatalı orqan olub 5 il müddətinə seçilmiş 125 deputatdan ibarətdir.



# Azərbaycan Respublikası Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi

# Məlumat Kitabçası



**Ali Məhkəmə** - ümumi və ixtisaslaşdırılmış məhkəmələrin icraatına aid olan mülki (o cümlədən inzibati və iqtisadi mübahisələrə dair), cinayət işləri və digər işlər üzrə ali məhkəmə orqanıdır. Ali Məhkəmə kassasiya instansiyası məhkəməsi kimi qanunla müəyyən edilmiş prosessual qayda-da ədalət mühakiməsini həyata keçirir.

**Azərbaycan Respublikasının Prokurorluğu** - cinayət işləri başlayır, istintaq aparır, məhkəmədə dövlət ittihamını müdafiə edir və məhkəmələr tərəfindən təyin edilmiş cəzaların məqsədinə nail olunmasında iştirak edir.



*Məlumat kitabçası*
*Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən hazırlanmışdır.*

# Məlumat kitabçası

## Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi



Bakı-2019

## AZƏRBAYCAN RESPUBLİKASI

Azərbaycan Respublikası Cənubi Qafqazda Şərqi Avropa və Qərbi Asiyanın kəsişməsində yerləşir. Xəzər dənizinin qərb sahilində yerləşən ölkəmiz cənubdan İranla 765 km və Türkiyə ilə 15 km, şimaldan Rusiya ilə 390 km, şimali-qərbdən Gürcüstan ilə 480 km, qərbdən Ermənistan ilə 1007 km həmsərhəddir. Azərbaycan demokratik, konstitusiyalı, dünyəvi və unitar respublikadır.Azərbaycanın paytaxtı və ən böyük şəhəri Bakı şəhəridir. Ölkə BMT-nin (1992), Avropa Şurasının, ATƏT, GUAM və Müstəqil Dövlətər Birliyinin üzvüdür.



Azərbaycan Respublikasının bayrağı və gerbi



- Ərazisi - 86,6 min kv km (114-cü)
- Əhalisi - 9,705,000 (83-cü)
- Milli pul vahidi - Manat
- Saat qurşağı - AZV (UKV + 4)
- Telefon kodu - +994

# KORRUPSİYAYA QARŞI MÜBARİZƏ

## KORRUPSİYAYA QARŞI MÜBARİZƏNİN ƏSAS PRİNSİPLƏRİ:

Müasir dövrün ən böyük sosial bəlalarından olan korrupsiya və onun törətdiyi neqativ nəticələrə qarşı mübarizə Azərbaycan Respublikasında dövlət siyasətinin başlıca istiqamətlərindən birini təşkil edir. Təsadüfi deyil ki, 2014-cü ilin 14 may -14 noyabr tarixlərində olan müddət ərzində ölkəmizin Avropa Şurasının Nazirlər Komitəsinə sədrlik etdiyi dövrdə də korrupsiyaya qarşı mübarizə prioritet elan edilmiş və beynəlxalq səviyyədə bu sosial bəla ilə mübarizə əzmi bir daha təsdiq edilmişdir. Dövlət başçısı cənab İlham Əliyev tərəfindən mahiyyəti qabaqlayıcı və inzibati tədbirlərin birgə həyata keçirilməsi olan qətiyyətli siyasi iradənin ortaya qoyulması nəticəsində korrupsiyaya qarşı səmərəli mübarizənin aşağıdakı dörd sütün üzərində qurulması mümkün olmuşdur.

**Beynəlxalq standartlara cavab verən qanunvericilik bazası**

**Dövlət idarəetməsində şəffaflıq**

**Ədalətli məhkəmə sistemi**

**Səmərəli antikorrupsiya qurumları**

# AZƏRBAYCAN RESPUBLİKASI BAŞ PROKUROR YANINDA KORRUPSİYAYA QARŞI MÜBARİZƏ BAŞ İDARƏSİ

Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 3 mart tarixli Sərəncamı ilə yaradılmaqla həmin dövrdən ötən müddət ərzində fəaliyyəti və strukturu daim təkmil-ləş-dirilmişdir. Korrupsiyaya qarşı mübarizənin aparılmasının bütün hüquq mühafizə orqanlarının və dövlət qurumlarının prioritet vəzifəsi olmasını nəzərə alaraq Baş İdarə tərəfindən yalnız mürəkkəb və çoxepizodlu korrupsiya hüquqpozmaları və cinayətləri ilə əlaqədar cinayət təqibi həyata keçirilir.



Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi korrupsiya hüquqpozmaları ilə bağlı cinayətlər üzrə ibtidai istintaq aparır, əməliyyat-axtarış fəaliyyətini həyata keçirir, korrupsiyaya qarşı mübarizənin vəziyyətini təhlil edir, ümumiləşdirir və bu sahədə işin səmərəliliyinin artırılması üçün təklif və tövsiyələr hazırlayır. Bu fəaliyyəti həyata keçirərkən normativ hüquqi aktlarda və onların layihələrində korrupsiya hüquqpozmalarına şərait yaradan hallar müəyyən etdikdə, onların aradan qaldırılması üçün Baş prokuror qarşısında məsələ qaldırır, maarifləndirmə işlərini, profilaktik tədbirləri və digər səlahiyyətləri yerinə yetirir.

Azərbaycan Respublikası Prezidentinin 24 iyul 2014-cü il tarixli Fərmanı ilə AzərbaycanRespublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Əsasnaməsinin və prokurorluq işçilərinin ümumi say tərkibinin təsdiq edilməsi haqqında"Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 28 oktyabr tarixli 138 nömrəli Fərmanında dəyişikliklər edilərək Baş İdarə əməkdaşların ştat vahidi 100-dən 140-a çatdırılmışdır. 09 yanvar 2015-ci il tarixdə Baş İdarənin yeni sturukturu, İdarə və şöbələrin əsasnamələri təsdiq edilmiş, əməkdaşlar yeni sturktura uyğun vəzifələrə təyin edilmişlər.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin əsas fəaliyyət istiqamətləri**

- **Korrupsiyaya qarşı qabaqlayıcı tədbirlər**
- **Korrupsiya cinayətlərinin istintaqı**
- **Əməliyyat-axtarış fəaliyyəti**
- **Maarifləndirmə tədbirləri**
- **Digər dövlət və hüquq mühafizə orqanları ilə qarşılıqlı əməkdaşlıq**
- **Vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlıq**
- **Beynəlxalq təşkilatlar və digər ölkələrin anti-korrupsiya qurumları ilə qarşılıqlı əməkdaşlıq**

# AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORU YANINDA KORRUPSİYAYA QARŞI MÜBARİZƏ BAŞ İDARƏSİNİN STRUKTURU





**161 " Qaynar xətt "<br>əlaqə mərkəzi**

**Korrupsiya halları ilə üzləşmiş vətəndaşlara ixtisaslaşmış cinayət təqibi orqanı kimi Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə idarəsinə birbaşa və maneəsiz müraciət etmək imkanının yaradılması məqsədi ilə Azərbaycan Respublikası Baş prokurorunun müvafiq əmri əsasında idarənin nəzdində "161" nömrəli "Qaynar xətt" əlaqə mərkəzi yaradılmaqla 03 mart 2011-ci il tarixdən fəaliyyətə başlamış, istirahət və bayram günləri də daxil olmaqla, sutkanın 24 saatı ərzində vətəndaşlar tərəfindən mərkəzə ödənişsiz zəng etmək üçün bütün texniki imkanlar yaradılmışdır.**

## 2014-2018-Cİ İLLƏR ƏRZİNDƏ "QAYNAR XƏTT" ƏLAQƏ MƏRKƏZİNİN FƏALİYYƏTİ




| | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|
| Aidiyyəti üzrə göndərilmiş | 4609 | 5954 | 5492 | 3696 | 3476 |
| Baş İdarədə araşdırılmış | 294 | 449 | 490 | 309 | 265 |
| Rayon (şəhər) prokurorluqlarına göndərilmiş | 0 | 833 | 167 | 178 | 113 |

## 2014-2018-Cİ İLLƏR ƏRZİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORU YANINDA KORRUPSİYAYA QARŞI MÜBARİZƏ BAŞ İDARƏSİNDƏ BAXILMIŞ MÜRACİƏTLƏR




| 2014 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|
| 9145 | 10654 | 9360 | 7809 | 8058 |

# 2014-2018-Cİ İLLƏR ƏRZİNDƏ MƏHKƏMƏYƏ GÖNDƏRİLMİŞ CİNAYƏT İŞLƏRİ




| | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|
| Cinayət işləri | 206 | 200 | 201 | 214 | 290 |
| Təqsirləndirilən şəxslər | 333 | 295 | 313 | 305 | 436 |
| Seçilmiş həbs qətiimkan tədbirləri | 63 | 76 | 92 | 53 | 149 |

# KORRUPSİYAYA QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ BEYNƏLXALQ ƏLAQƏLƏR

Korrupsiya mahiyyəti etibarı ilə transmilli və mürəkkəb bir fenomen olduğundan ona qarşı mübarizə səylərin birləşdirilməsini tələb edir. Azərbaycan Respublikası bu sosial bəla ilə mübarizədə beynəlxalq əməkdaşlığa xüsusi əhəmiyyət verməklə aşağıdakı nüfuzlu beynəlxalq qurumlarla səmərəli əməkdaşlıq edir.

UNODC
United Nations Office on Drugs and Crime

**Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi (UNODC)**

GRECO
Group of States against Corruption
Groupe d'États contre la corruption

**Avropa Şurasının Korrupsiyaya qarşı mübarizə aparan Dövlətlər Qrupu (GRECO)**

IAP
International Association of Prosecutors

**Beynəlxalq Prokurorlar Assosiasiyası (IAP)**

IACA
INTERNATIONAL ANTI-CORRUPTION ACADEMY

**Beynəlxalq Antikorrupsiya Akademiyası (IACA)**

**Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyası (İAACA)**

**İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının Şərqi Avropa və Mərkəzi Asiya üzrə Antikorrupsiya Şəbəkəsinin İstanbul Fəaliyyət Planı (OECD)**

**Korrupsiyaya qarşı Avropa Tərəfdaşları Təşkilatı (EPAC)**

## ƏLAQƏ

**Azərbaycan Respublikası Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

**Ünvan:** Səttar Bəhlulzadə küç,  10 A, AZ 1008,
Baku, Azerbaijan
**Tel.:** (+994 12) 361 00 02
Faks: (+994 12) 563 61 16
**Web:** www.acd.genprosecutor.gov.az
**E-mail:** anticorruption@acd.genprosecutor.gov.az